# Qədim Şəki təmizliyi və gözəlliyi ilə də ürəkləri oxşayır

**Dağlar qoynunda ünvanlanan Şəkinin keçmişini yada salıb, dünənini gözlərin qarşısında canlandıranda, bu gün onun hər yanında hökm sürən qaynarlığına tamaşa edəndə daha firavan, iqtisadiyyatca daha güclü və bunun müqabilində daha çox qonaqlı-qaralı rayon olduğunu aydın görürsən.**

Rayon icra hakimiyyətinin məsul işçisi Sadiq Yusifovla qədim tarixli köklər üstündə boy atıb ucalan Şəkinin dünəni, bu günü barədə bir qədər söhbətləşdik. Onun sözü-söhbəti ancaq bu notlar üstündə kökləndi ki, Şəki tarixi ənənələrini bu gün də qoruyub saxlayan, qonaqpərvərliyi ilə seçilən, təmizliyi və gözəlliyi ilə də fərqlənən regiondur. Və onu da vurğuladı ki, bu gözəlliyi, təmizliyi, milli adət-ənənələri qoruyub saxlayanlardan, artıranlardan söhbət düşəndə kommunal xidməti işçilərinin adlarını da hamı özünəxas şirinliklə xatırladır. Sadiq müəllim onu da dedi ki, həmin sahəyə rəhbərlik edən **İntiqam Əşirovla,** həmçinin ayrı-ayrı xidmət işçiləri ilə səhər tezdən, axşamlar günbatana kimi şəhərin küçə və prospektlərində, park və xiyabanlarda, hətta istirahət mərkəzlərinin əhatəsində görüşüb həmsöhbət ola bilərsiniz. Bax, elə bu qiyabi təqdimatla sözügedən sahənin kollektivinin işi, gücü, əhvali-ruhiyyəsi ilə tanışlıq üçün özləri ilə elə iş üstündə görüşməyi qərarlaşdırdıq. İsti yay günlərinin birində şəkili həmkarlarımdan biri ilə səhər tezdən şəhərin gəzintisinə çıxdıq və yolumuzu kommunal təsərrüfat istehsalat birliyi işçilərinin yanından saldıq. Hara üz tutduqsa, kiminlə həmsöhbət olduqsa, orada kommunal xidməti işçilərinin əzmkarlıqla çalışdıqlarını gördük. Yaşıllıqlara su verənlərin də, yolları süpürüb təmizləyənlərin də, küçə və prospektlərin işıqlandırma sistemlərinin sazlığını nəzərdən keçirənlərin də, yaşıllıqlara qulluq edən bağbanların da üzərlərinə düşən vəzifəni ürəklərinin hərarəti, qollarının qüvvəsi ilə, bir də doğma şəhərə olan isti münasibətləri ilə yüksək əzmkarlıqla yerinə yetirdiklərini gördük. Nə üçün belə sübh tezdən işə başladıqlarının həm də çox tələskən işlədiklərinin səbəbini soruşanda cavabları bu oldu: —Adamlar küçələrə çıxana, iş yerlərinə, eləcə də ayrı-ayrı ünvanlara yola düşənə kimi təmizliyi, səliqə-sahmanı başa çatdırmalıyıq ki, hər yan təmiz görünsün, axı təmizlik həm də sağlamlıqdır - dedilər və əlavə edib bildirdilər ki, şəhərdə kiçikdən-böyüyə, gənclərdən başlamış ağsaqqal və ağbirçəklərə kimi hamı öz yaşayış ünvanına bu qayda ilə yanaşır. Hamı gözəlliyin şah damarı sayılan təmizliyin qorunub saxlanmasına, artırılmasına vicdanının səsi ilə cavab verir. Burada şəkili bir el ağsaqqalının bu barədə olan söhbəti yadıma düşdü.

—Bilmirəm onlar gecələr nə vaxt yatır, səhərlər nə vaxt dururlar. Amma bircə onu bilir və hər gün görürəm ki, biz sakinlər park və xiyabanlara çıxanda, prospekt və küçələrlə hərəkət edəndə hər yanda təmizlik və səliqə-sahman görürük.

Şəki Kommunal Təsərrüfatı İstehsalat Birliyinin direktoru İntiqam Əşirov onunla görüşümüzə kimi gördüklərimizə, eşitdiklərimizə qüvvət olaraq aşağıdakıları bildirdi:

—Son yeddi ildə Şəki şəhəri daha da böyümüş, burada təmirabadlıq işləri yeni vüsət almışdır. Şəhərimizin siması yaxşılığa doğru çox dəyişmişdir və Şəki respublikamızın ən tanınmış turizm ünvanlarından birinə çevrilmişdir. Aparılan təmizlik və yaşıllaşdırma işləri, yaradılan səliqə-sahman onun gözəlliyini daha da artırır. Şəhərimizin ildən-ilə böyüməsinin, gözəlləşməsinin müqabilində birliyimiz şəhərdə yerinə yetirdiyi müxtəlif növ təmizlik, yaşıllaşdırma və işıqlandırma və digər kommunal xidmətlərinin də həcmini xeyli artırmışdır. Xidmətlərimizin mərkəzində şəhərin əsas magistral prospekt və küçələrinin əl və mexaniki üsulla süpürülməsi, su arxlarının təmizlənməsi, yolların su avtomaşınları ilə yuyulması, qış mövsümündə prospekt və küçələrin qar-buz örtüyündən təmizlənərək ora qum-duz-kəpək qarışığının səpilməsi, tullantıların yığılaraq zibil poliqonuna daşınması, zərərsizləşdirilməsi, yaşıllıq zolaqlarına qulluq edilməsi və şəhərin prospekt və küçələrinin işıqlandırılması kimi mühüm işlər durur.

Cari ilin birinci yarısında iş planına və təsdiq olunmuş dislokasiyaya uyğun olaraq şəhərin ayrı-ayrı mərkəzi prospekt və küçələrində 110 min kvadratmetr sahə əl ilə, 321850 kvadratmetr sahə isə mexaniki üsulla süpürülüb, 50400 poqonmetr su arxları müxtəlif tullantılardan təmizlənib, şəhərin ayrı-ayrı prospekt-küçələri, parkları və sair yerləri pandemiya ilə bağlı dezinfeksiya edilərək yuyulmuşdur, 20 hektar yaşıllıq zolaqlarına, xidməti işləri, həmçinin şəhərin müxtəlif küçə və prospektlərində olan mövcud işıqlanma sistemləri üzərində müntəzəm olaraq təmir işləri aparılmış, elektrik lampası, elektrik xətti və sair elektrik materialları dəyişdirilmişdir. Qeyd olunan müddətdə Qoxmuq kənd yolunda 81 ədəd yeni işıq nöqtəsi yaradılmış və yeni inşa edilmiş modul tipli xəstəxananın ərazisinin işıqlandırılması üçün yeni işıqlanma dayaqları qoyulmuşdur. Qeyd edim ki, şəhərin küçələrinin işıqlanma sistemlərinə hər gün nəzarət edilir, hava və yeraltı elektrik xətləri yoxlanılır, hər hansı uyğunsuzluq aşkar edilərsə, təcili bərpa işləri aparılır.

Göstərdiyimiz xidmətlərin ahənginin pozulmaması üçün müəssisədə xüsusi qrafik tərtib edilmişdir.

İşçilərimiz hər ay vaxtlı-vaxtında olmaqla əmək haqları ilə təmin edilir və onların hər birinin sosial qayğılarının həllinə qayğı ilə yanaşılır. Bütün bunlar isə onları şəhərdə təmizliyin, yaşıllığın və işıqlanmanın təmin edilməsində öz peşə borclarını var qüvvələri ilə tam yerinə yetirməyə ruhlandırır və yerdə nümunəvi xidmətə nail oluruq.

Şəhərdə təmizliyin təmin olunması və əhalinin məqsədli istifadələri üçün ayrı-ayrı məhəllələrə, bütün ictimai yaşayış binalarının həyətlərinə dəmir tullantı qutuları, konteynerləri qoyulmuşdur. Yığılmış tullantılar birliyin texnikaları və işçi qüvvəsi ilə daşınır. Bütün xidməti avtomaşınlarımız onlar üçün tərtib edilmiş marşrut-qrafik əsasında göstəriblər.

Şəhərimizin daxilindən keçən "Dəyirmanarx" və "Qurcana" çaylarının daxili hövzələri də işçilərimiz tərəfindən vaxtaşırı olaraq müxtəlif tullantılardan təmizlənilir. 2019-2020-ci illərin qış mövsümündə, havaların qarlı-şaxtalı keçdiyi günlərdə birliyimiz fövqəladə iş rejimi ilə işləmişdir.

Birliyimizin balansında hazırda müxtəlif kommunal xidməti təyinatlı 43 ədəd maşın-texnika vardır. Əhali arasında təbliğat və maarifləndirmə işlərinin aparılmasını, hamının təmizlik gözəlliyin şah damarıdır prinsipinə əməl etməsinə də xüsusi diqqət yetiririk. Mövcud imkanlardan səmərəli istifadə etməklə bundan sonra da qarşımızda duran möhtəşəm vəzifəni, təmizlik və gözəlliyin qorunması kimi şərəfli vəzifəni layiqincə yerinə yetirəcəyik. Çünki gözəlliyi şah edən gözəllik, gözəlliyi ucaldan isə təmizlikdir.

Belə ki, bir qrup abonentlər xidməti müqavilə bağlamaqdan və aylıq xidmət haqqını ödəməkdən yayınırlar. Bu problemlərin həll olunmasında aidiyyəti üzrə məhəllə nümayəndələrinin köməyi də əsas şərtdir. Birliyin abunə şöbəsi daim bununla əlaqədar maarifləndirmə işləri aparır.

Ümumiyyətlə, Şəki Kommunal Təsərrüfatı İstehsalat Birliyi 2020-ci ilin ötən üzərinə düşən xidməti işləri layiqincə yerinə yetirmişdi, il ərzində də bu işləri uğurla davam etdirəcəkdir.

Müsahibim bizimlə söhbətinə xalq Şairi Bəxtiyar Vahabzadənin aşağıdakı misraları ilə yekun vurdu.

*Yerdə gözəllik də, çirkinlik də var.*
*Gərək gözəl ola ürəyin, sözün.*
*Tapıb gözəlliyi qalxar, ucalar,*
*Əgər gözəl isə ürəyin özü.*

İşləri, əməlləri, arzu, diləkləri gözəl olan şəkililərin ürəkləri də gözəl, eli-obası, torpağı üçün döyünəndir. Hər iş gününü ürəklərinin hərarəti, qollarının qüvvəsi ilə başa vuran, təmizliyi, gözəlliyin şah damarı kimi daim uca tutan kommunal təsərrüfat işçilərinin timsalında bunu aydın gördük.

**Rasim AMANOV,**
**"Respublika".**